# Vətən uğrunda fədakarlıq, mərdlik və sədaqət zaman və məkan tanımayan dəyərlərdir

**Azərbaycan xalqı XX əsrdə böyük tarixi sınaqlardan keçərək zaman-zaman minlərlə igid oğul və qızını Vətənin müdafiəsinə göndərib. İkinci Dünya müharibəsi bu sınaqlardan ən mürəkkəb və fədakarlıqlar tələb edən qanlı savaşlardan biri olub. Bu müharibədə göstərilən qəhrəmanlıq, igidlik və şücaət xalqımızın hərb tarixinin parlaq səhifələrinə həkk olunub.**

**İkinci Dünya müharibəsi illərində faşizm üzərində qazanılmış qələbədə Azərbaycanın rolu misilsiz olub. Bakı nefti müharibənin taleyini həll edən əsas amillərdən birinə çevrilib. Azərbaycanın zəhmətkeş insanları cəbhəyə 75 milyon ton neft, İttifaqda istehsal olunan aviasiya benzininin 80 faizini və minlərlə ton sursat göndərib. Bundan əlavə, 700 min nəfərdən artıq azərbaycanlı müharibəyə yollanıb, onlardan yarıdan çoxu həlak olub. Onlarla azərbaycanlı döyüşçü "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb.**



Azərbaycan xalqının igid oğulları döyüşlərdə qəhrəmanlıq nümunələri nümayiş etdirərək, faşizm əsarəti təhlükəsinin qarşısının uğurla alınmasında şücaət göstəriblər. Hitler Almaniyası üzərindəki tarixi qələbədən 81 il keçməsinə baxmayaraq, xalqımızın rəşadət göstərən qəhrəmanlarının adları bu gün də dərin ehtiram hissi ilə yad edilir, xatirələri əziz tutulur.

Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı, şücaəti yaddaşlarda həmişə yaşayır. Qürurlanırıq ki, minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik bir nümunəyə çevrilib.

İkinci Dünya müharibəsində Azərbaycanın xidmətlərini yüksək qiymətləndirən Nikolay Baybakov demişdir: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü".

Faşizmə qarşı mübarizədə ön cəbhələrdə fəallıq göstərərək rəşadətli döyüş yolu keçən qəhrəman oğullarımız bizim üçün qürur və iftixar mənbəyidir. Belə vətənpərvər, qorxmaz, cəsur, igid Vətən oğullarından biri də Sovet İttifaqı Qəhrəmanı Cəfərov Ağaşirin Ağaməmməd oğludur.

Onun anadan olmasının 120 illiyi yalnız adi bir tarixi yubiley deyil, həm də gənc nəsildə vətənpərvərlik ruhunun gücləndirilməsi, qəhrəmanlıq ənənələrinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Vətənpərvər, igid Vətən oğullarının həyat və döyüş yoluna nəzər salmaq bizim üçün də böyük fəxrdir.

Cəfərov Ağaşirin Ağaməmməd oğlu Azərbaycanın milli-mənəvi dəyərləri ilə zəngin bir ailədə dünyaya göz açıb. Uşaqlıq və gənclik illərində çalışqanlıq, intizam və Vətən sevgisi ilə seçilib. O, gənc yaşlarından hərbi xidmətə maraq göstərib, əsgər həyatı və hərbi təlimlərlə bağlı bilik və bacarıqlarını inkişaf etdirib.

Gənclik illərində formalaşan bu keyfiyyətlər onun müharibə illərindəki qəhrəmanlığının təməlini təşkil edib. Ağaşirin Cəfərov yalnız şəxsi mərdliyi ilə deyil, həm də əsgər yoldaşlarına nümunəvi münasibətləri ilə fərqlənib.

İkinci Dünya müharibəsi illərində Ağaşirin Cəfərov ən ağır və kritik döyüş cəbhələrində xidmət edib. O, döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi cəsarət, taktiki bacarıq və mərdliklə həm yoldaşlarının, həm də komandanlığın hörmətini qazanıb.

Cəfərovun iştirak etdiyi döyüşlərdə qəhrəmanlığı, ani qərarvermə bacarığı və şəxsi təhlükəsizliyini nəzərə almadan Vətən uğrunda mübarizə aparması xüsusi qeyd olunmalıdır. Onun fəaliyyəti təkcə bir döyüş sahəsi ilə məhdudlaşmır,bütün döyüş yolu boyunca Vətən sevgisi və fədakarlığın parlaq nümunəsi olub.

İkinci Dünya müharibəsinin təbii olaraq Azərbaycanda da dərin izləri qalıb. Həm Sovet İttifaqının bir hissəsi olaraq, həm də müharibə iştirakçılarının həyatlarının şiddətini və çətinliyini yaşamaqla biz bu kədərli tarixə qarşı məsuliyyət daşıyırıq. Şəhidlərimiz və qazilərimiz bizə keçmişin ağırlığını, hər bir ailənin müharibə dövründə çəkdiyi əzabı, hər bir insanın itirdiyi həyatın dəyərini anladır. Ağaşirin Cəfərov kimi şəxsiyyətlər bizə göstərirlər ki, müharibənin əzabları yalnız müharibə meydanlarında deyil, həm də gündəlik həyatımızda özünü göstərir. Onların fədakarlığı, cəsarəti və mübarizəsi bu günümüzə işıq salır, bizə insanların daha yaxşı gələcək qurmaq üçün necə mübarizə apardıqlarını xatırladır.

Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə adını qızıl hərflərlə yazdırmış bu igid döyüşçü-Sovet İttifaqı Qəhrəmanı Ağaşirin Cəfərovun həyat və döyüş yolundan danışmaq böyük şərəfdir. Ağaşirin Cəfərov 25 fevral 1906-cı ildə Neftçala rayonunun Ballıcalı kəndində anadan olub. Uşaqlıq və gənclik illəri çətinliklər içində keçsə də, Vətənə və xalqa bağlılıq hissi onun xarakterində əsas yer tutub. 1928-1930-cu illərdə Sovet Ordusu sıralarında xidmət etmiş A.Cəfərov Böyük Vətən müharibəsində qələbə gününə kimi Qafqazdan başlayaraq, Berlinədək böyük və şərəfli bir döyüş yolu keçib, özünü istedadlı bacarıqlı və igid komandir kimi tanıdıb. Qəhrəmanımız şəxsi igidliyi ilə hər zaman əsgərlərə böyük ruh yüksəkliyi verib. Onun komandanlıq etdiyi dəstə onlarla düşmən əsgərini zərərsizləşdirib, bir neçə mühüm strateji nöqtəni ələ keçirib.

Qəhrəmanımız əsasən Cənub və Qərb cəbhələrində döyüşüb, çoxsaylı əməliyyatlarda iştirak edib. O, 1942-ci ilin noyabrında 51-ci ordunun tərkibindəki 416-cı Azərbaycan Milli Diviziyasında pulemyotçu kimi döyüşə başlayıb. Bu diviziya müharibə tariximizdə xüsusi yer tutur. Tərkibi əsasən azərbaycanlılardan ibarət olan milli diviziyamızın igidləri faşizm bəlasına qalib gəlmək yolunda böyük qəhrəmanlıqlar göstəriblər. Ağaşirin Cəfərovun da nilli diviziyamızın tərkibində keçdiyi döyüş yolu hər bir azərbaycanlının qürur mənbəyidir. O, 1943-cü ilin oktyabrında Melitopol yaxınlığında aparılan döyüşlərdə göstərdiyi igidliklə böyük şöhrət qazanıb. Onun sərrast atəşi nəticəsində düşmənin 300-dən artıq canlı qüvvəsi məhv edilib, mühüm yüksəklik azad olunub. Qəhrəmanımız bu döyüşdə göstərdiyi rəşadətə görə 1 noyabar 1943-cü ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Qeyd edək ki, bu ad 416-cı diviziyada ilk dəfə məhz Ağaşirin Cəfərova verilib. Cəsur döyüşçü müharibə zamanı üç dəfə yaralansa da, ruhdan düşməyib, sona qədər vuruşub, Berlinədək şərəfli döyüş yolu keçibdir. Müharibədən sonra o, doğma kəndinə qayıdaraq kolxoz və kənd soveti sədri kimi çalışıb, daha sonra Bakıda neft-qazma idarələrindən birində əmək fəaliyyətini davam etdirib, sakit və zəhmətkeş həyatı ilə də hamıya nümunə olmağı bacarıb. 3 may 1984-cü ildə dünyasını dəyişən qəhrəmanımız Neftçala şəhərinin İsmilli qəbrstanlığında dəfn olunub. Bu gün Neftçala rayonu Astanlı kənd tam orta məktəbi onun adını daşıyır. Neftçala şəhər parkında onun büstü ucaldılıb. Neftçala şəhərindəki küçələrdən birinə onun adı verilib. Bütün bunlar isə təkcə bir insanın xatirəsinə deyil, bir xalqın qəhrəmanlıq irsinə hörmətin təzahürüdür. Ağaşirin Cəfərov kimi qəhrəmanların xatirəsi yaşadıqca bizim milli ruhumuz, vətənpərvərliyimiz və tariximiz də yaşayacaqdır. Onların şücaəti bugünkü gənclər üçün örnək, gələcək nəsillər üçün isə əsl vətənpərvərlik dərsidir. Əsl vətənpərvər bir insanın göstərdiyi misilsiz qəhrəmanlıq Azərbaycan xalqının tarixində parlaq səhifə kimi yer alıb.

Bu gün onun xatirəsi elmi və publisistik əsərlərdə, təhsil vətənpərvərlik tədbirlərində,abidələr və muzey sərgilərində əbədiləşdirilib. Qəhrəmanımızın irsi yalnız tarixi faktlardan deyil, həm də milli şüurun,cəsarət və fədakarlıq dəyərlərinin qorunması və inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Sovet İttifaqı Qəhrəmanı Cəfərov Ağaşirin Ağaməmməd oğlunun anadan olmasının 120 illiyi Azərbaycan xalqının qəhrəmanlıq tarixinin bir daha xatırladılması və milli qəhrəmanlıq ənənələrinin qorunub saxlanılması baxımından da böyük əhəmiyyət kəsb edir.

Ağaşirin Cəfərov öz həyat və döyüş yolu ilə sübut edib ki, Vətən uğrunda fədakarlıq, mərdlik və sədaqət zaman və məkan tanımayan dəyərlərdir. Qəhrəmanımızın adı və xatirəsi gələcək nəsillərə hər zaman örnək olaraq ötürüləcək, qəhrəmanlıq irsi daim yaşayacaqdır.

İkinci Dünya müharibəsində əldə olunan qələbə yalnız bir hərbi uğur deyil, eyni zamanda, azadlıq və ədalət naminə verilmiş milyonlarla canın, çəkilən əzabların, göstərilən qəhrəmanlıqların bəhrəsi idi. Ağaşirin Cəfərovun timsalında bir daha şahid olduq ki, doğma vətəni sevən, ona xidmət edən hər kəs tarixdə öz layiqli yerini alır!

**_Nuranə NƏCƏFOVA_**
**_Tədqiqatçı-elmi işçi_**